# Qaçqınlıq

**(Əvvəli qəzetimizin 5, 29 iyun və 13 iyul 2015-ci il tarixli saylarında).**

*(IV hekayə)*

1939—1940-cı illərdə Karel-Fin Bessarabiya, Şimali Vıkorina və Baltikyanı dövlətlər SSRİ tərəfindən işğal olundu. İşğal olunmuş ərazilərə Rusiyanın bir çox yerlərindən insanlar kütləvi surətdə miqrasiya olunurdu. O cümlədən Tatarıstan Mux, Res-in bir neçə rayonu İ.V.Stalinin əmrinə əsasən 1940-cı ildə Finlandiyaya köçürülmüş, burada yerləşdirilmişdi.

SSRİ ilə Almaniya arasında 28 sentyabr 1939-cu ildə «Dostluq və sərhədlər haqqında» müqavilə imzalanmasına baxmayaraq Hitler Almaniyası Avropanın bir çox ölkələrini işğal etdikdən sonra 1941-ci ilin 22 iyununda gecə yarısı qəflətən «Barbarossa planı» ilə qoşunlarını elan etmədən, xaincəsinə Sovetlər İttifaqına yeritdi.

Müharibənin elə ilk günü İ. V. Stalinin əmrilə departasiya olunmuş insanların geri köçürülməsi əmri verildi.

Nə idi köçürülmüş insanların günahı? Onlar niyə vətənlərindən didərgin salınıb, başqa ölkəyə köçürülmüşlər?

Bu sualın cavabını heç böyüklər də bilmədiyi halda Zoya da bilə bilməzdi. Ancaq bu sualın cavabının çox uzun çəkə biləçəyini bilir, ona görədə susur, heç kəsdən heç nə soruşmurdu.

* * *

Artıq bir həftə idi ki, onlar Leninqradda (indiki Sankt-Peterburqda) yerləşdirilmişdilər. Günlər çox ağır, acınacaqlı keçirdi. Uzun dar dəhlizlər, kiçik, cansıxıcı otaqlar, üstəlik də yeməyə ərzağın tapılmaması, müharibədən sonra pərikən quş dəstəsi kimi dağılıb qaçqın düşmüş, əzizlərini itirmiş insanları daha çox sıxırdı.

Sutka ərzində camaata cüzi yemək verilirdi. Nə böyüklərin qarnı, nə də uşaqların gözü doyurdu. Aclıqdan əziyyət çəkən uşaqlar bir gün toplaşaraq bir araya gəldilər. Sözləşib dəstələrə bölünərək sədəqə yığmaq üçün Leninqrad şəhərinin küçələrinə axışdılar. Şəhərin mərkəzinəcən tranvayla gedib, orada beş qrupa ayrılırdılar. Hər qrupa bir böyük uşaq başçılıq edirdi ki, bu böyük şəhərdə itib, bir-birilərindən ayrı düşməsinlər.

Şəhərin gözəlliyi bizi valeh etmişdi. Qədim uca binalar, geniş xiyabanlar, parklar, qədim abidələr, muzeylər necə də əzəmətli görünürdü. Asfalt döşənmiş yollar tərtəmiz idi. Gün işığı düşdükcə, göyümtül şüşə kimi parıldayırdı, biz hər yerə heyranlıqla baxırdıq. Küçələrdə divarlar boyu müharibə haqqında plakatlar vurulmuş, Leninin və Stalinin portretləri asılmışdı. Şəhərin müdafiəsi üçün bir sıra yerlərdə zenit və artilleriya topları saxlanılmış, üstünə qara örtük çəkilmişdi. Toplara əsgərlər keşik çəkirdilər.

Mən Qayanın başçılıq etdiyi dəstədən ayrılmırdım. Rəfiqəm Səidə, Nina ilə qapıları döyür, sədəqə umurduq. Qapıda ilk qarşımıza çıxan qadına salam verərək:—qaçqın düşmüşük, anamız, atamız, yoxdur, xahiş edirik bizə sədəqə verin—deyirdik. Rus qadınları bizi böyük mehribanlıqla qarşılayır, müharibəni başlayanları lənətləyir, bizi bağrına basaraq ağlayır, çörək, şirniyyat verirdilər.

Ninanın atası Petya dayı da hərbiçi idi. O da atamla eyni hissədə qulluq edirdi. Elə həmin gün atamla eyni qatarda, eyni vaqonda müharibəyə getmişdi. Anası Nadya xala isə araba asarkən boynu qırılıb ölmüşdü. İndi o, tamam tək qalmış, bizə sığınmışdı. Biz yığdığımız ərzağı gətirib böyüklərə təhvil verirdik. Ərzaq hamının arasında bərabər bölünürdü. Nina Səidə və mən yığdıqlarımızdan özümüzçün gizli saxlayır, gecələr hamıdan xəlvət çarpayıda oturub şirniyyatlardan yeyir, bir an da olsa müharibəni, aclığı unudurduq. Bir həftə beləcə keçdi. Sən demə tale bunu da bizə çox görəcəkmiş...

(Ardı var).

**Rəciyyə MEYFULLAQIZI.**

## "Qəbələ"nin azyaşlı futbolçularından alqışlanmalı addım

"Qəbələ" Futbol Akademiyasının şagirdləri xeyirxah təşəbbüs irəli sürmüşlər. Akademiyanın azyaşlı futbolçuları bu dəfə ictimaiyyət arasında maraq doğuran yerlərdə iməclik keçirməklə diqqət mərkəzinə düşmüşlər. Burada təhsil alan aşağı yaş qrupları "Nohur gölünü qoruyaq" adlı kompaniyaya qoşulmuş, gölün ətrafını zibil tullantılarından təmizləmişlər. Akademiyadan iməcliyin davamlı olacağı, növbəti iməcliyin "7 gözəl" şəlaləsi ətrafında təşkil ediləcəyi bildirilmişdir.

**«Qəbələ».**

## Ekskursiyalar davam edir

Hər zaman olduğu kimi Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi yüksək səviyyədə bütün ziyarətçilərinə xidmət göstərir. Bu günlərdə muzeyimizə Belçika, İtaliya, İspaniya, Türkiyə və sair ölkələrdən turistlər gəlmişdir. Azərbaycanın qədim tarixi içərisində Qafqaz Albaniyasının özünəməxsusluğu, qədim mənbələrdə adının möhtəşəmliyi haqqında bütün muzey ziyarətçilərinə geniş məlumat verilir. Bütün bunlarla yanaşı ekspozisiya ilə tanış olan hər bir ziyarətçiyə xüsusi hədiyyələr verilir.

## Əziz balamız Emin!



**Səni 6 yaşın tamam olması münasibəti ilə təbrik edir, sənə can sağlığı, gələcək təhsilində uğurlar arzulayırıq!**

***Məktəb yaşın mübarək,***
***Xürrəm böyü, yaşa dol.***
***Vətən üçün, xalq üçün***
***Gərəkli bir oğul ol.***

***Babaların Emin, Kamal, nənələrin Şərqiyyə, Şahnisə, atan Nail, anan Adilə, əmilərin Sarvan, Cavid, dayın Ədalət, bibilərin Könül və Fəxriyyə.***

## Əzizimiz Elay Elnur qızı!



**Sənə uğurlu təhsil arzulayırıq. Təhsil, bilik sonsuz bir xəzinədir. Bu xəzinənin açarlarını möhkəm əllərdə saxla. Xoşbəxtlik, uğurlu həyat bu xəzinəyə yiyələnməkdən asılıdır.**

**Babaların Nadir və Sahib, nənələrin Elmira və Raya.**

## Əzizimiz Elgün Ramid oğlu!



I sinfə daxil olmağın münasibətilə səni təbrik edirik. Qədəmlərin uğurlu, yolun açıq olsun.

Həyatın keşməkeşli yollarından həmişə uğurla, alnıaçıq, üzüağ çıxmağı və elmin zirvələrinə doğru inamla addımlamağı arzulayırıq.

***Baban Rais, nənələrin Kütah, Firmuyə, bibin Qumru, dayın Toğrul, atan Ramid, anan Vəfa.***

## Əzizimiz Ümid Elxan oğlu!



**Təhsilə yiyələnmək üçün ilk dəfə məktəbə qədəm qoymağın və I sinfə daxil edilməyin münasibətilə səni təbrik edirik!**

**Təhsil illərində valideynlərinə, doğma Qəbələmizə, Vətənə layiq övlad kimi yetişməyini arzu edirik.**

**Baban İnqilab, nənələrin Nahidə, Leyla, xalan Nigar, bibilərin Afaq, Akifə, Aynur, atan Elxan, anan Validə.**

## İşaxtaran vətəndaşların nəzərinə!

Qəbələ Rayon Məşğulluq Mərkəzi 23 sentyabr 2015-ci il tarixdə Əmək Yarmarkası keçirir.

İşaxtaran vətəndaşlar, sizi Əmək Yarmarkasına dəvət edirik.

Yarmarka saat 11-00-da başlanılır.

Yarmarka Qəbələ rayon Mədəniyyət Mərkəzində Qəbələ şəhəri 28 may küçəsi 40 ünvanında keçiriləcəkdir.

**QƏBƏLƏ RAYON MƏŞĞULLUQ MƏRKƏZİ.**

## ELANLAR

Daşınmaz Əmlakın Dövlət Reystri Xidməti Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən Bum qəsəbə sakini **Xancanova Nahidə Barat qızının** və ailə üzvlərinin adına verilmiş seriya MN oo12884 №-li Hüquqların Dövlət Qeydiyyatı Haqqında Daşınmaz Əmlakın **Dövlət Reystrindən çıxarış** sənədi itdiyi üçün etibarsız sayılır.

---

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti 9 saylı Ərazi İdarəsi tərəfindən **Hacıyeva Vüsalə İsmayıl qızının** adına verilmiş 406013011914 nömrəli **Reyestrdən çıxarış** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixdə 11 №-li qərarla Bum kənd sakini **Musayeva Dürrə Şöyüb qızının** adına verilmiş JN: 1066 nömrəli (kodu 40600038) **Torpağa mülkiyyət hüququna dair Dövlət aktı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
N. R. Atakişiyev.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.